# Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin kafedralarının

# Ə S A S N A M Ə S İ

## I. Ümumi müddəalar

1. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin (bundan sonra – Mərkəz) İqtisadiyyat və menecment kafedrası, Vergi metodologiyası kafedrası və Vergi qanunvericiliyi və təsərrüfat hüququ kafedrası (bundan sonra – kafedralar) ixtisaslaşdıqları istiqamətlər üzrə tədris və elmi-tədqiqat sahələrində (bundan sonra - müvafiq sahə) təşkilati və nəzarət tədbirlərini həyata keçirir.

2. Kafedralar öz fəaliyyətlərində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli 90 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"ni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Vergilər Nazirliyinin Kollegiya qərarlarını, vergilər nazirinin qərarlarını, əmrlərini, sərəncamlarını, Mərkəzin rəisinin əmr və göstərişlərini və bu Əsasnaməni rəhbər tutur.

3. Kafedralar öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Mərkəzin digər struktur vahidləri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Kafedraların saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericiliklə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

## II. Kafedraların fəaliyyət istiqamətləri

5. Kafedraların fəaliyyət istiqamətləri aşağıdakılardır:

5.1. Dövlət vergi orqanlarının vəzifəli şəxsləri, eləcə də digər sahələrin mütəxəssisləri (bundan sonra – dinləyicilər) üçün vergitutma istiqamətində ixtisasartırma təhsili üzrə təlim modullarına daxil olan ixtisasartırma proqramları çərçivəsində tədrisi həyata keçirir;

5.2. İxtisasartırma proqramlarına daxil edilən fənn və mövzuların tədrisi ilə bağlı olan materialların (əsas və işçi proqramlar, müasir tələblərə cavab verən təlim materialları, biliklərin qiymətləndirilməsi üçün zəruri olan testlər, praktiki məsələ və tapşırıqlar, suallar və s.) hazırlanması üzrə fəaliyyəti həyata keçirir;

5.3. Mərkəzin elmi-tədqiqat fəaliyyəti üzrə iş planlarına müvafiq olaraq elmi tədqiqatların aparılmasında iştirak edir;

5.4. Müvafiq sahənin inkişafını təmin edir;

5.5. Müvafiq sahədə, eləcə də vergi qanunvericiliyi və inzibatçılığı sahəsində normayaratma fəaliyyətinin həyata keçirilməsində iştirak edir;

5.6. Qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. Kafedranın vəzifələri

6. Kafedralar bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

6.1. Kafedrada tədris olunan fənn və mövzular üzrə əsas və işçi proqramları tərtib etmək, onların təkmilləşdirilmək;

6.2. Profili üzrə fənn və mövzuların tədrisinin həyata keçirilməsini təşkil etmək;

6.3. Müasir tələblərə cavab verən təlim materiallarını (tədris vəsaitləri, mühazirələr, praktikumlar, slaydlar, elektron təlim materialları və s.) hazırlamaq;

6.4. Mərkəzin dinləyicilərinin biliklərinin qiymətləndirilməsi üçün zəruri materialları (testlər, praktiki məsələ və tapşırıqlar, suallar və s.) hazırlamaq;

6.5.Tədris prosesində müasir təlim metodları və alətlərinin tətbiqinə dair tədbirləri həyata keçirmək;

6.6. Mərkəzin elmi-tədqiqat işlərinin yerinə yetirilməsində ixtisaslaşma istiqaməti üzrə iştirak etmək;

6.7. Kafedranın illik iş planlarını, eləcə də əməkdaşların fərdi iş planlarını hazırlamaq;

6.8. Açıq və qarşılıqlı dərsləri, eləcə də onların müzakirəsini təşkil etmək;

6.9. Tədris və təlim sahəsində fəaliyyət göstərən müəssisə və təşkilatlarla əməkdaşlıq əlaqələrinin yaradılması istiqamətində işlər görmək;

6.10. Mərkəzin fəaliyyətində kafedranın əməkdaşlarının fəal iştirakını təmin etmək;

6.11. Kafedranın fəaliyyəti barədə hesabatlar hazırlamaq;

6.12. Mərkəzin rəisinin tapşırığına əsasən Mərkəzin əməkdaşlarının və kənar təşkilatların əməkdaşlarının, eləcə də müstəqil tədqiqatçıların təqdim etdikləri dissertasiyalara rəy vermək;

6.13.Qanunvericiliyə uyğun olaraq kommersiya (vergi) sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.14. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.15. Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. Kafedranın hüquqları

7. Kafedralar aşağıdakı hüquqlara malikdir:

7.1. İxtisasartırma proqramlarının tərtibi ilə əlaqədar təkliflər vermək;

7.2. Kafedra əməkdaşlarının peşəkarlıq səviyyəsini artırmaq üçün müvafiq təkliflər vermək;

7.3. Dinləyicilərin yeni istiqamətlər üzrə ixtisaslarının artırılması barədə təkliflər vermək;

7.4. Vergilər Nazirliyinin müvafiq struktur vahidlərindən və bölmələrindən təlim prosesi və elmi-tədqiqat işlərinin aparılması ilə əlaqədar məlumatların alınması üçün Mərkəzin rəisinə müraciət etmək;

7.5. Kafedranın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

7.6. İxtisasartırma təhsili sahəsində beynəlxalq təcrübəni öyrənmək və onun tətbiqi ilə bağlı təkliflər vermək;

7.7. Digər təhsil və elmi-tədqiqat müəssisələri ilə qarşılıqlı əlaqələrin yaradılması, eləcə də təcrübə mübadiləsinin aparılması istiqamətində təkliflər vermək;

7.8. Təlim sahəsində keçirilən beynəlxalq tədbirlərdə iştirak edilməsi üçün təkliflər vermək;

7.9. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.10. Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Kafedranın fəaliyyətinin təşkili

8. Kafedraya rəhbərlik müvafiq qaydada seçilmiş və vergilər naziri tərəfindən təyin edilmiş kafedra müdiri tərəfindən həyata keçirilir.

9. Kafedranın fəaliyyəti Mərkəzin rəisi tərəfindən təsdiq olunmuş illik iş planları, kafedranın əməkdaşlarının fəaliyyəti isə həmin planlara uyğun olaraq tərtib edilmiş fərdi iş planları üzrə təşkil edilir.

10. Kafedraların vəzifələrinin icrası və kafedrada vəzifələrin tutulmasına dair müsabiqə ilə bağlı məsələlər kafedranın iclasında müzakirə edilir. İclasda müzakirə olunan məsələlər və qəbul olunmuş qərarlar barədə Mərkəzin rəisinə məlumat verilir.

11. Kafedra iclasları rübdə bir dəfədən az olmayaraq keçirilir. Kafedranın iclaslarında Mərkəzin rəhbər vəzifəli şəxsləri iştirak edə bilərlər. Kafedranın iclaslarına Mərkəzin digər struktur vahidlərinin əməkdaşları dəvət oluna bilərlər.

12. Kafedranın iclasında yalnız kafedranın əməkdaşları səsvermə hüququna malikdirlər. İclasda qərarlar səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Qərarlar qəbul edilərkən səsvermə kafedra üzvlərindən birinin təklifi ilə gizli formada aparıla bilər.

13. Kafedranın əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

* * *